Prof. Dr. Yaqub Mahmudov 80. Yıl Armağanı Özel Sayısı
ISSN:2148-2292
Akademik Tarih ve Düşünce Dergisi, 6(5) Kış 2019 ss. 257-273
Academic Journal of History and Idea, 6(5) Winter 2019 pp. 257-273
Araştırma Makalesi
Original Article

# Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalının başlanması Türkiyə tarixşünalığında

**Vidadi Umudlu***

**ORCID: 0000 0002 4766 2798**

**Xülasə**

XIX əsrin əvvəllərində çar I Aleksandrın Şərqi Gürcüstanın ilhaqına dair qərarı, Cənubi Qafqaz tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Bu hərəkət Azərbaycan torpaqlarının işğalına səbəb oldu. Azərbaycanda güclü bir dövlətin olmaması və ölkənin kiçik xanlıqlara bölünməsi bu işğalı daha da sürətləndirdi. Məqalədə XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Türkiyə tarixşünaslığında Şimali Azərbaycanın siyasi vəziyyətinin öyrənilməsi, Azərbaycan xanlıqlarının Osmanlı, İran və Rusiya dövlətləri ilə siyasi əlaqələri, habelə Şimal Azərbaycanın çar Rusiyası tərəfindən işğalının başlanması məsələsi araşdırılmışdır.Azərbaycan xalqının müstəmləkə rejiminə qarşı mübarizəsi, Rusiya ordusu tərəfindən mülki şəxslərin vəhşicəsinə məhv edilməsi və Cavad xanın rəhbərliyi altında Gəncə xanlığının qəhrəman müdafiəsi Türkiyə tarixşünaslığında mühüm yer tutur. Məqalədə türk tarixçilərinin Qarabağ, Şəki, Şirvan, Dərbənd xanlıqlarının çar Rusiyası tərəfindən işğalına münasibətləri də əks olunmuşdur.Məqalə, Mehmet Saray, Sadiq Mufit Bilge, Nedim İpek, Cemal Gökce, Naki Keykurun (Şeyxzamanlı), Abdullah Saydam, Anıl Çeçen, Mustafa Budak və digər türk tarixçilərinin əsərləri əsasında tədqiq olunmuşdur. Problemin mənbə bazası da çox zəngindir. Başbakanlıq Osmanlı Arxivi (BOA) sənədləri və arxiv sənədlərinə əsaslanan kitablar problemlərin araşdırılmasında mühüm rol oynayır.

**Açar sözlər:** Çar Rusiyası, Şimali Azərbaycan, işğal, türk tarixçiləri

**Gönderme Tarihi: 30/11/2019** **Kabul Tarihi:26/12/2019**

* *Dosent, Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu, aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru, E-mail: v.umudlu@yahoo.co.uk*

© ATDD Tüm Hakları Saklıdır

# The beginning of the occupation of Northern Azerbaijan by Tsarist Russia in the historiography of Turkey

**Vidadi Umudlu**

**Abstract**

At the beginning of the 19th century, decision of Tsar Alexandr I on the annexation of Eastern GeorgiaIt marked the beginning of a new phase in the history of the South Caucasus. This act led to the occupation of Azerbaijani lands. The absence of a strong state in Azerbaijan and the division of the country into small khanates accelerated this occupation even more. The article discusses the study of the political situation of North Azerbaijan in Turkish historiography in the late XVIII and early XIX centuries, the political relations of the Azerbaijani khanates with the Ottoman, Iranian and Russian states, as well as the beginning of the occupation of Northern Azerbaijan by tsarist Russia.The struggle of the Azerbaijani people against the colonial regime, the brutal extermination of civilians by the Russian military and the heroic defense of the Ganja Khanate under the leadership of Javad Khan play an important role in the historiography of Turkey. The article also reflects the attitude of Turkish historians towards the occupation of the Karabakh, Sheki, Shirvan, Derbent khanates by tsarist Russia.The article is covered by the works of Mehmet Saray, Sadik Mufit Bilge, Nedim Ipek, Jamal Gokce, Naki Keykurun (Sheikhzamanli), Abdullah Saydam, Anyl Chechn, Mustafa Budak and other Turkish historians. The source base of the problems is also very rich. Documents from the Prime Minister of the Ottoman Archives (BOA) and books based on archival documents play an important role in investigating problems.

**Keywords:**Tsarist Russia, Northern Azerbaijan, Occupation, Turkish historians

**Received Date: 30/11/2019** **Accepted Date: 26/12/2019**

# Начало оккупации Северного Азербайджана царской Россией в историографии Турции

**Видади Умудлу**

**Резюме**

В начале 19 века, решение царя Александра I об аннексии Восточной Грузии ознаменовало начало нового этапа в истории Южного Кавказа. Этот акт привел к оккупации азербайджанских земель. Отсутствие сильного государства в Азербайджане и разделение страны на мелкие ханства еще более ускорили эту оккупацию.В статье рассматриваются вопрос об исследованиив турецкой историографии политическое положение Северного Азербайджанав конце XVIII и начале XIX веков,политические отношения Азербайджанских ханств с Османскими, Иранскими и Российскими государствами, а также начало оккупации Северного Азербайджана царской Россией.Борьба Азербайджанского народа против колониального режима, жестокое уничтожение мирных жителей российскими военными и героическая защита Гянджинского ханства под руководством Джавад хана играют важную роль в историографии Турции. В статье также отражено отношение турецких историков к оккупации Карабахского, Шекинского, Ширванского, Дербентского ханств царской Россией.Статья освещаются работами Мехмета Сарая, Садика Муфита Бильге, Недима Ипека, Джамала Гекче, Наки Кейкуруна (Шейхзаманлы), Абдуллы Сайдама, Аныла Чечна, Мустафы Будака и других турецких историков. Источниковая база проблем также очень богать. Документы из премьер-министра Османского архива (BOA) и книги, основанные на архивных документах, играют важную роль в расследовании проблем.

**Ключевые слова:** Царская Россия, Северный Азербайджан, оккупация, Турецкие историки

**Получено: 30/11/2019** **Принято: 26/12/2019**

## Giriş

XVIII yüzillikdə və XIX yüzilliyin əvvəllərində Osmanlı dövləti ilə Azərbaycan arasında münasibətlər heç də həmişə eyni səviyyədə olmamış, konkret dövrdə özünəməxsus xüsusiyyətlər daşımışdır. XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətlərinin səciyyəvi xüsusiyyəti bundan ibarət idi ki, Osmanlı imperiyası Rusiyanın Azərbaycanı zəbt etməsi ilə barışmaq istəmir, lakin hərbi qüdrəti zəiflədiyi üçün bu işğala real müqavimət göstərə bilmirdi.

Həmin dövrdə Azərbaycanda mövcud olan siyasi vəziyyət, bütün Qafqazın, o cümlədən Şimalı Azərbaycanın car Rusiyası tərəfindən işğalı, bu dövrlə məşğul olan türk tarixcilərinin əsərlərində kifayət qədər geniş şəkildə əks olunmuşdur.Türk dünyasının bir hissəsi olan Azərbaycanın tədqiq olunan dövrdəki çox mürəkkəb tarixinin araşdırılmasına rəğbət və qardaşlıq duyğusu ilə yanaşan Türkiyə tarixçiləriproblemin obyektiv şəkildə araşdırılaraq türk oxucularına çatdırılmasında mühüm töhvələrini vermişlər.

Türkiyə tarixşünaslığında bəhs olunan problemə bu və ya digər dərəcədə Mehmet Saray, Müfit Sadık Bilge, Nedim İpek, Cemal Gökçe, Naki Keykurun (Şeyhzamanlı), Abdullah Saydam, Anıl Çeçen, Mustafa Budak və başqa müəlliflərin əsərlərində toxunulmuşdur. Bu kitablarda İranın siyasi hakimiyyəti, Qafqazın türk xalqları üzərində hiss ediləcək qədər ağır və davamlı olmuş İran idarəsi, eyni zamanda XIX əsrin əvvəllərindən başlanmış Rusiya işğalı problemləri araşdırılmışdır.

Mövzunun mənbə bazası kifayət qədər zəngindir. Başbakanlıq Osmanlı Arxivlərində (BOA) hivz olunan sənədlər də bu mövzuya tam işıq salır. Arxivin əksər fondlarında işğalın gedişi,Osmanlı Dövlətinin həmin hadisələrə münasibətini əks etdirən qiymətli sənədlər saxlanmaqla bu baxımdan Hatti-Humayun (HH), Cevdeti-Hariciye (CH), Cevdeti-Dahiliye (CD) fondları xüsusi olaraq qeyd olunmalıdır.Bu sənədlərdə başlıca olaraq Osmanlı Dövlətinin bölgədə nüfuz uğrunda apardığı mübarizə ilə yanaşı Azərbaycan xanlıqları arasındakı əlaqələr, rus işğalına məruz qalan ərazilərlə Osmanlı dövlətinin münasibətləri, rusların təzyiqləri ilə ermənilərin həyata keçirdikləri qarət və talanlar öz əksini tapmışdır.Sənədlərdən bəlli olur ki, Rusiyanın bu bölgəni özünün təsir dairəsinə salması ilə Azərbaycan uğrunda Rusiya, İran və Osmanlı dövlətləri arasında nüfuz mübarizəsi başlayır. Həmin vaxtı Azərbaycan xanlıqlarının Osmanlı dövlətindən olan yardım xahişlərinin çoxalması, Osmanlı Dövlətinin siyasətinin isə “xanlıqların öz

aralarındakı problemləri həll edərək birlikdə hərəkət etmələri"nin vacibliyi üzərində qurulması tezisi də sənədlərdə öz əksini tapmışdır.

Ayrıca olaraq bəhs olunan problemə həsr olunmuş əsərlər sırasında Başbakanlıq Osmanlı Arxivlərinin sənədləri əsasında hazırlanmış kitablar mühüm yer tutur. Bu baxımdan 1992-1993-cu illərdə Ankarada nəşr olunmuş iki cildlik *"Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasebetlere Dair Arşiv Belgeleri (Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy) 1578-1914"* adlı sənədlər toplusunu qeyd etmək olar.[1] *"Osmanlı Belgelerinde Azerbaycan"* adlı digər bir sənədlər toplusunda da tədqiq olunan problemlə bağlı orijinal sənədlər elmi ictimaiyyətin istifadəsinə verilmişdir.[2] Başbakanlıq Osmanlı Arxivləri Baş İdarəsinin nəşr etdirdiyi *"Osmanlı Belgelerinde Karabağ"* kitabı da Zəngin Osmanlı arxiv sənədləri əsasında tərtib olunmuşdur. Bu topluya Qarabağın 1587-ci ildən 1910-cu ilə qədər olan dövr tarixini əks etdirən çox qiymətli sənədlər daxil edilmişdir.[3]

**İşğalın başlanması türk tarixçilərinin əsərlərində**

Azərbaycanla bağlı çoxsaylı tarixi araşdırmaların müəllifi olan Mehmet Saray, öz əsərlərində XVIII əsrin sonunda Azərbaycanda mövcud olmuş xanlıqlar sistemindən, Qacarların ölkəni birlədirmək uğrunda apardığı mübarizədən,Rusiya və Osmanlıların maraqlarından və eləcə də çar Rusiyası tərəfindən Şimali Azərbaycanın işğal olunmasından geniş şəkildə bəhs etmişdir. Müəllifin yeni nəşr olunan *"Yeni Türk Cumhuriyetleri Tarihi"* əsərində sadalanan fikirlər öz əksini tapmışdır.[4]. Müəllifin Azərbaycan tarixi problemlərinin araşdırılmasına həsr etdiyi digər kitabı olan *"Azerbaycan Türkleri Tarihi"* əsərində də vətənimizin xanlıqlar dövrü tarixi məsələləri, onların Rusiya tərəfindən işğalı geniş şəkildə işıqlandırılmış, bu barədə ilkin qaynaqların verdiyi bilgiləri türk oxucusuna çatdırmışdır.[5]"Rus İşğalı Devrinde Osmanlı Devleti ile Türkistan Hanlıkları Arasındakı Siyasi Münasebetler (1775-1875)"[6] adlı araşdırmasında M.Saray bir tərəfdən müsəlman dünyasının lideri Osmanlı dövlətinin Orta Asiyadakı müsəlman-türk xanlıqları və Azərbaycanla bağlı yeritdiyi siyasətini

[1] *Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasebetlere Dair Arşiv Belgeleri (Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy) 1578-1914*, Ankara: T.C.Başbakanlik Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı Yayınları, 1993.
[2] *Osmanlı Belgelerinde Azerbaycan*, İstanbul: Türk Dünyası Belediyeler Birliği (TDBB)Yayınları, 2015.
[3] *Osmanli Belgelerinde Karabağ*, İstanbul: T.C.Başbakanlik Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı Yayınları, 2009.
[4] Mehmet Saray. *Yeni Türk Cumhuriyetleri Tarihi*, Ankara: Türk Tarih Kurumu, 2014.
[5] Mehmet Saray. *Azerbaycan Türkleri Tarihi*, İstanbul: İstanbul Matbaası, 1993.
[6] Mehmet Saray. *Rus İşğali Devrinde Osmanlı Devleti İle Türkistan Hanlıkları Arasınadaki Siyasi Münasebetler (1775-1875)*, Ankara: Türk Tarih Kurumu Yayınları, 1994.

ortaya qoymağa, digər tərəfdən də bu xanlıqların Osmanlı dövlətinə münasibətdəki mövqeyini izah etməyə çalışmışdır. Əsərdə Rusiya işğalının tərəflər arasındakı münasibətlərə göstərdiyi mənfi təsir də öz əksini tapmışdır.[7]

Şimali Azərbaycanın işğal öncəsi vəziyyətindən bəhs edən türk müəlliflərindən biri də Camal Gökçedir. Onun *"Kafkasya ve Osmanlı İmparatorluöunun Kafkasya siyaseti"* əsərində Osmanlı imperatorluğunun 1774-1829-cu illərdə yeritdiyi Qafqaz siyasəti Başbakanlıq Arxivlərindən toplanan tarixi sənədlər əsasında qələmə alınmışdır. Kitabda həmçinin Qafqazın etnik mənzərəsi, islamın Qafqaza daxil olması və İran–Qafqaz münasibətləri öz əksini tapmışdır. Müəllifin qeyd edir ki, bu əsər *"illər boyu duyğusal yanaşma ilə yazılan Osmanlı-Qafqaz münasibətləri"* sənədlərə əsaslanaraq obyektiv şəkildə qələmə alınmışdır.[8] C. Gökçe1800-ci ildə Rusiyanın Tiflis, Şuşa, Gəncə tərəflərində İrana qarşı fəallaşdığını qeyd edir.[9] Bölgədə mövcud olan vəziyyəti beynəlxalq dəyərlər sistemindən təhlil edən tarixçi Mustafa Aydın Rusiya, Osmanlı, İran Qaçar xanədanı arasında sıxışıb qalan Cənubi Qafqazın güç mübarizələrinin mərkəzi olduğunu göstərmiş və bu üç dövlətlə müqayisədə çox zəif xanlıqların meydana gəlməsinin bölgədə hökmranlıq uğrunda gedən mübarizənin ağırlaşmasına səbəb olduğunu qeyd etmişdir.[10]

Məlumdur ki, Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı Şərqi Gürcüstanın ilhaqı və bununla birlikdə Gəncə və İrəvan xanlıqlarına aid olan Qazax, Şəmşəddil, Borçalı və Pəmbək sultanlıqlarının zəbti ilə başlamışdır. Bununla Qafqazda özünə mühüm dayaq nöqtəsi əldə edən Rusiya, öz hərbi işğal planını ləngimədən həyata keçirmişdi. İşğal məsələlərindən bəhs edən türk tarixçiləri də bu fakta biganə qalmamış, Gürcüstanın Rusiya tərəfindən işğalının bütün Qafqazın,o cümlədən Şimali Azərbaycanın işğalında ilkin mərhələnin təşkil etdiyini söyləmişlərdir.

Gürcüstanın Rusiyaya ilhaqından bəhs edən Akdes Nimet Kurat özünün *"Türkiye ve Rusya"*əsərində,1801-ci ildə çar I Aleksandrın Tiflisə Rusiya hərbiçilərini göndərdiyini,qanlı döyüşlər nəticəsində 1804-1805-ci illərdə ruslarınbir sıra Azərbaycan xanlıqlarını işğal etdiyini qeyd edir.[11] Tarixçi A.Saydam da Şimali Azərbaycanın, 1801-ci ildə Qazax və Şəmşəddilin işğalı ilə başlayan rus istilasından, Azərbaycan və

---

[7]Saray, *Rus İşğalı Devrinde*, 7.
[8]Cema Gökçe. *Kafkasya ve Osmanlı İmparatorluğunun Kafkasya siyaseti,* İstanbul: Şamil Egitim ve Kültür Vakfı, 1979, 190.
[9]Gökçe, *Kafkasya ve Osmanlı İmparatorluğunun Kafkasya siyaseti*, 188.
[10]Mustafa Aydın, *Üç Büyük Gücün Çatışma Alanı Kafkaslar*, İstanbul: Gökkubbe, 2005.
[11]Akdes Nimet Kurat, *Türkiye ve Rusya*, Ankara: Kültür Bakanlığı Yayınları, 1990, 50.

Dağıstana Rusiya tərəfindən edilən hədə-qorxulardan bəhs etmişdir.[12] Tarixçi M.S.Bilge belə hesab edir ki, Gürcüstanın Rusiya tərəfindən ilhaqı, Rusiyanın Qafqazdakı işğallarında keçid nöqtəsini təşkil edir. Gürcüstanı ələ keçirməklə bölgədə müstəmləkəçi idarənin təməlini qoyan ruslar, vəziyyətlərini möhkəmləndirmək üçün, şərqdə Xəzər dənizi və cənubda Araz çayına qədər irəliləməyi özlərinə əsas hədəf seçmişdilər. [13] Məlumdur ki, çox keçmədən Rusiya Gülüstan və Türkmənçay müqavilələri ilə öz hədəflərini reallaşdırmağa nail oldular.

Rusiyanın Cənubi Qafqazda möhkəmlənməsində Gürcüstanın işğal edilməsi amilinin mühüm rol oynadığını türk tədqiqatçılarından Nedim İpek də qeyd edir. Müəllifin fikrincə Gürcüstanın ilhaqı ilə Rusiyanın sərhədləri Türkiyə və İran torpaqlarına qədər uzanmaqla bərabər, Dağıstan və Çərkəzistan (Şimali Qafqaz dağlıları nəzərdə tutulur – V.U.) mühasirə vəziyyətinə düşdü və İran və Osmanlı dövlətinə qarşı da qüvvətli bir hərəkət üçün baza təmin edilmiş oldu. Gürcüstanda təhkimçilik rejiminin tətbiqi, müstəqil gürcü ortodoks kilsəsinin rus kilsəsinə birləşdirilməsi, çara sadiq dini və dünyəvi yuxarı əyan təbəqəsinin hazırlanması, tədris işinin rus dilində aparılması bilavasitə bu işğalın nəticəsində baş verdi.[14] Azərbaycan Xalq Cumhuriyyətinin banisi olmuş Məhəmməd Əmin Rəsulzadə "*Azerbaycan Problemi"* əsərində qeyd edir ki, çarizm bu ərazidə hakim ola bilmək üçün Qafqazda xristianlığın qoruyucusu və Avropa mədəniyyətinin təmsilçisi olaraq ortaya çıxmışdır. Əslində isə, xristianlığı qorumaq, müsəlman türklərin və İranlıların hərəkətləri ilə o dövrə qədər müstəqil olan müstəqil gürcü kilsəsinin müstəqiliyyinin tamamilə aradan qaldırılması və rus hakimiyyətinin qurulması şəklində həyata keçirildi.[15] Göründüyü kimi, xristianların hamisi kimi çıxış etməsinə baxmayaraq Rusiya, Gürcüstanı ilhaq etməklə, burada müstəmləkəçi üsul-idarənin əsasını qoymuş oldu.

İşğala qədər sadəcə Azərbaycanın deyil, bütün Qafqazın müsəlman xalqlarının yabançı olduğu və Avropanın bütün mədəni xalqları tərəfindən nifrət edilən köləlik sistemi, rus məmurlar tərəfindən Azərbaycanda zorla həyata keçirilməyə başlanmışdı.[16]

Yuxarıda söylənilən fikirləri təsdiq etməklə yanaşı, şərq bölgələrində yaşayan ermənilərə rusların artan diqqəti Ali Arslanın *"Kutsal Ermeni Papalığı Eçmiyadzin Kilisesi'nde Stratejik Savaşlar"* adlı əsərində də qeyd edilir. Müəllif yazır ki, 1801-ci

---

[12]Abdullah Sayda, *Kırım ve Kafkas Göçleri (1856-1876),* Ankara: Türk Tarih Kurumu, 2010.
[13]Müfit Sadık Bilge, *Osmanlı Çağınd Kafkasya(1454-1829),* İstanbul: Kitabevi Yayınları 2015, 299.
[14] Nedim İpek, "Kafkaslar'daki Nüfûs Hareketleri" *Türkiyat Mecmuası* 20 (1991): 273-313.
[15]Mehmet .EminResulzade. *Azerbaycan Problemi,* Ankara: Azerbaycan Kültür Derneği 1996, 14.
[16]Resulzade, *Azerbaycan Problemi,* 14.

ildə Tiflis xanlığını özünə birləşdirən Rusiya, bir tərəfdən Şimali Azərbaycan xanlıqlarını ələ keçirməyə başlayır, digər tərəfdən Anadoluya qapını açmaq üçün Rəvan, Tiflis, Ərzurum, Qars, Van, Təbriz və ətrafındakı bölgələrdən heç birində üstünlük təşkil etməyən ermənilərdən bir vasitə istifadə etməyi qərara alır.[17] Bu fikirlər rusların Azərbaycan və Şərqi Anadoluda yaşayan erməni əhalisindən öz planlarını həyata keçirmək üçün bir vasitə kimi istifadə emələrini bir daha sübut edir.

Tarixçi Nəcməddin Aygünün fikrincə, 1801-ci ildə Gürcüstanın Rusiya əyalətlərindən birinə çevrilməsi nəinki Azərbaycanın, eləcə də Şərqi Anadolu bölgələrinin də birbaşa işgalına səbəb olmuşdur.[18] *"Dış Türkler"* əsərinin müəllifi Celaleddin Yücel qeyd edir ki, 1801-ci ildə ruslar "himayə" bəhanəsi ilə Cənubi Qafqaza-Gürcüstana soxulduqları zaman, Azərbaycan xanlıqlar dövrünü yaşayırdı.[19] Göründüyü kimi güclü Rusiya imperiyası qarşısında Azərbaycanın kiçik xanlıqlara parçalanmasının işğala real zəmin olması müəllifin diqqətindən yayınmamışdır.

Beləliklə, əksər türk tarixçiləri də Şimali Azərbaycanın işalının başlanmasında, Gürcüstanın Rusiyaya ilhaq edilməsi faktorunu həlledici amillərdən biri olduğunu qeyd edirlər. Əhalisinin böyük hissəsinin xristian olmasından istifadə edərək Gürcüstanı ilhaq etməklə ilk dayaq nöqtəsi əldə edən çar Rusiyası, çox keçmədən bütün Cənubi Qafqazı işğal edərək, cənubda Qacar və cənub-qərbdə Osmanlı dövlətlərinin qonşularına çevrildilər. Rusiya həmçinin Anadolu və İran üzərinə gələcək yürüşlərində Gürcüstandan istinadgah kimi istifadə etməyi nəzərdə tuturdu.

Yuxarıda rusların, bölgəni işğal etmək üçün yerli erməni əhalisindən bir vasitə kimi istifadə etmək planlarından bəhs etmişdik. Tarixçi Mustafa Budak arxiv sənədlərini təhlil edərək bu qənaətə qəlir ki, ruslar öz planlarını həyata keçirmək üçün bölgədə yaşayan kürd əhalisindən də istifadə etmək fikrində idilər. Müəllif yazır ki, 1801-ci ildə ruslar Tiflisə gəldikləri ilk günlərdə, Osmanlı və İran ərazisində daimi hərəkətdə olan və qeyri-məmnun bir kütlə təsiri bağışlayan kürd əhalisi rusların maraq dairəsinə daxil olur. Onlar üzərində iş aparan rus təhlükəsizlik təşkilatının əsas hədəfi kürd əşirətlərini mübarizəyə qoşmaq idi.[20] Rusiya bölgə əhalisini qarşı-qarşıya qoymaqla daha asan yollarla öz məqsədinə çatmaq fikrində idi.

[17]Ali Arslan, *Kutsal Ermeni Papalığı Eçmiyadzin Kilisesi'nde Stratejik Savaşlar,* İstanbul: Truva Yayınları, 2005, 27.
[18]Necmettin Aygün, Kafkasyada Rus-Osmanlı Mücadelesi ve Kars dolaylarında Sınır İhaleleri, 1826, *Cumhuriyet Tarihi Araştırmaları Dergisi (CTAD),* Yıl 3, sy. 6 (Güz 2007): 98-116.
[19]Celal Yücel. *Dış Türkler,* İstanbul: Hun Yayınları, 1976, 77-78.
[20]Mustafa Budak, "Osmanlı-Rus ilişkilerinde Kafkasya", *Avrasya Etütleri, IV (*1995): *113.*

Buna baxmayaraq tarixçi M.S.Bilge, çar I Aleksandr tərəfindən kral ailəsinin Tiflisdən çıxarılaraq Rusiyaya sürgün olunduğunu, XII Georginin oğullarının həbs edildiyini qeyd edir. Daha sonra kraliça Məryəmi həbs etmək əmri alan gen.İvan Lazarev 12 aprel 1803-ci ildə zorla yataq otağına girdiyi kraliça tərəfindən öldürüldü. Kraliça Məryəm 1803-ci ilin oktyabrında ailəsi ilə birlikdə Rusiyaya sürgün edildi.[21] 1804-cü ildə Meqrel taxtına keçən V.Levanın Osmanlı tabiyatından çıxaraq Rusiyadan himayə istəməsi üzərinə Meqrel 1804-cü ildə əyalət olaraq Rusiyaya ilhaq edildi. 1805-ci ildə Anakliya qalası da işğal olundu.[22] 1804-cü ildə İmereti kralı Napolyona müraciət edərək himayə istəmiş və 1811-ci ildə bu müracət təkrar edilmişdi. Bundan başqa gürcülər, bir müddət sonra Rusiya himayəsini qəbul etmənin ağır xəta olduğunu anlamış və Rusiyaya qarşı qiyam və üsyan qaldırmışdılar.[23]

Xristian faktorundan danışılarkən qeyd olunmalıdır ki, o dövrdə həm Azərbaycan xanlıqlarında, həm də Osmanlı torpaqlarında ermənilərin təşkilatlandığı yer kilsə təşkilatı idi. Ruslar da bu təşkilatdan və erməni ruhanilərindən istifadə edəcəklər. Buna görə də, ermənilərin müqəddəs manastırlarından biri olan möhtərəmlərindən olan Ücmüəzzini Osmanlı nüfuz dairəsindən xilas etmək və özlərinin yayılmacı siyasətinin bir vasitəsinə çevirmək yoluna qədəm qoymuşlardır. Ümumiyyətlə rusların yayılmacı siyasətində xristian elementlərindən istifadə etdiyi məlum bir həqiqətdir.[24] General Sisianov İrəvan xanı Məhəmməd xana məktub göndərərək Üçmüəzzin katalikosu olaraq Danilin tanınmasını, Rusiyaya tabe olmasını və vergi ödəməsini, İrəvan qalasında bir rus qarnizonu yerləşdirməsini tələb etdi. Məhəmməd xan bütün təklifləri rədd etdi.[25]

C.Gökçe adı çəkilən kitabında qeyd edir ki, Cənubi Qafqazın işğalı planına uyğun hərəkət edən rus hakim dairələri 1802-ci ildə Gen.Sisianovu Qafqazın baş hakimliyinə gətirdilər. Sisyanov ilk olaraq osetinləri itaət altın aldı. 1803-cü ilin qışında General Qulyakovun rəhbərliyi ilə rus qoşunlarının Zaqatala yürüşündən bəhs edən müəllif, yürüş nəticəsində bölgənin çapıb talandığını və viran qoyulduğunu qeyd edir.[26] Sisyanovun əmri ilə rus birlikləri 1803-cü ildə Azərbaycan xanlıqları və Dağıstana hücuma keçdilər. Qulyakov ölkəni talan və viran etdi.[27] Tarixçi M.S.Bilge yazır ki, Qafqazın Baş hakimi Sisyanovun əmri ilə rus qoşunları 1803-cü ilin yazında

[21]Bilge, *Osmanlı Çağınd Kafkasya (1454-1829),* 301.
[22]Müfit Sadık Bilge, *Osmanlı Devlet ve Kafkasya,* İstanbul: Eren Yayınçılık, 2006, 167.
[23]İsmail Berkok, *Tarihte Kafkasya,* İstanbul: İstanbul Matbası,1958, 402.
[24]Arslan, *Kutsal Ermeni Papalığı Eçmiyadzin Kilisesi'nde Stratejik Savaşlar,* 27.
[25]Vidadi Umudoğlu, "Kuzey Azerbaycan'ın Çar Rusiyası Tarafından İşğali ve Sömürgeçilige karşı Mücadele(1801-1828)", *Türk Dünyası Araştırmaları,* sy.124, (Şubat 2000): 74.
[26]Gökçe, *Kafkasya ve Osmanlı İmparatorluğunun Kafkasya siyaseti,* 189-190.
[27]Bilge, *Osmanlı Devlet ve Kafkasya*, 167.

Azərbaycan xanlıqları və Dağıstana hücuma keçdi. Gen.Qulyakov ölkəni soyub taladı. İrəvan xanı Məhəmməd Həsənin elçiləri Hüseyn xan və Əli xan, Şirvan xanı Mustafa xan, Şəki xanı Səlim xan tərəfindən İstanbula göndərilən elçilər bölgədəki vəziyyəti haqqında Osmanlı sarayına məlumat vermişdilər.[28] İrəvan xanlığı ilə bağlı araşdırma aparan H. Oktay türk və müslüman ölkələri olan Qacar İranı ilə Osmanlı dövlətinin ruslara qarşı birləşmələrinin əhəmiyyətindən bəh edərək yazır: *"Bu həm bölgə baxımından, həm hər iki ölkənin gələcəyi baxımından çox önəmli idi. İrəvan xanı bu vəziyyəti görmüş və bir an öncə bölgədə bir ittifaqın qurulmasının vacibliyinə inanırdı. Fəqət hər iki dövlətin aralarındakı tarixi münaqişə bu təhlükəni görmələrinə mane olurdu."*[29]

Tarixçi M. Sarayın fikrincə Azərbaycanda Rusiya işgalları başlayınca Osmanlı Dövlətindən ilk yardım istəyən xanlıqların başında Qarabağ xanlığı gəlməkdədir. Fəqət istədiyi köməyi ala bilməyən Qarabağ xanı İbrahim Xəlil, İranda Qaçar xanədan rəisi Ağa Məhəmməd xana yanaşmıştır. Buradan da yetərli dəstəyi görməyən Qarabağ xanı İbrahim Xəlil, Rusiya nüfusunu qəbul edərək vergi vermək məcburiyyətində qalmışdır.[30]Başbakanlıq Osmnlı Arxivinin Xətti-Humayun fondunda saxlanılan *"Şuşa və Qarabağ xanı İbrahim Xəlil xanin Osmanlı dövlətinin xidmətində olmaq barəsində bölgədə tək qalması"* adlı sənəd Şuşa və Qarabağ xanı İbrahimxəlil xanın Ərzurum Valisi Abdullah Paşaya 1806-cı ildə göndərmiş olduğu farsca məktubun tərcüməsini özündə ehtiva edir. Məktubda, xan əvvəldən bəri Osmanlı dövlətinin xidmətində olduğu üçün fəxr etdiyini, ancaq Qubalı Fətəli xan, Şəkili Məhəmməd Həsən xan və İrəvanlı Məhəmməd xanın Rusiyaya itaət etdiklərini və bölgədə tək qaldığını, kömək edilmədyi təqdirdə özünün də Rusiya ilə sülh bağlamaq məcburiyyətində qalacağından bəhs olinur.[31].

Göründüyü kimi məktubda Qarabağlı İbrahim xan Rusiyaya tərəf üz çevirməsinin əsas səbəbimi, onun Qacar və Osmanlı dövlətlərindən lazımi dəstəyi ala bilməməsi ilə izah edir. Digər tərəfdən Qarabağ xanı burada Qubalı Fətəli xanın, Şəkili Məhəmməd Həsən xanın, və İrəvanlı Məhəmməd xanın Rusiyaya itaət etməsindən bəhs edir. Məlumat üçün bildirək ki, Qubalı Fətəli xan artıq 1789-cu ildə vəfat etmişdi və

---

[28]Bilge, *Osmanlı Çağınd Kafkasya(1454-1829)*, 303.
[29]Oktay Hasan. Kafkaslarda Rus Yayılması Karşısında Osmanlı-Kaçar Faktörünün Harekete Geçirilme Teşebbüsü (Agustos-Eylul 1811), *Vakanüvi*s, 2 (2017): 379-392.
[30] Saray, *Azerbaycan Türkleri Tarihi*, 19.
[31] *BOA, HAT,* b.1392/55538.

onun XIX əsrin əvvəllərində baç verən hadisələrə elə ciddi bir təsiri yoxdur, əksinə onun oğlu Şeyxəli xan işğalçılara qarşı mübarizəni davam etdirirdi. Şəkili Məhəmməd Həsən xan da, 1797-ci ildə vəfat etmiş, onu əvəz edən oğlu Səlim xanın Kürəkçay müqaviləsinə qədər Rusiya ilə hər-hansı münasibətindən danışmaq yersizdir. İrəvan xanlığına gəlincə, Rusiya imperiyasına çoxlu itkilər hesabına başa gələn 1804-cü il uğursuz İrəvan yürüşünü göstərmək kifayətdir.

Gəncə xanlığıının çar Rusiyası tərəfindən işğalı mövzusu Türkiyə tarixşünaslığında yetərincə bəhs olunan məsələlərdəndir. XIX əsrin əvvəlində başlayan rus işğalını işıqlandıran tarixçi M.Saray Gəncənin qəhrəman müdafiəsinə, Cavad xanın göstərdiyi qəhrəmanlıqlara xüsusi yer vermişdir.[32] Əsərdə Gəncə xanlığının qəhrəman müdafiəsi və Cavad xanın rolu xüsusilə qeyd olunmaqla, ermənilərin Rusiyanın Qafqaz siyasətindəki yeri məsələsi də tədqiq edilmişdir. Bu zaman müəllif qeyd edir ki, ermənilərin bir qismi könüllü şəkildə Rusiya qüvvələrinin xeyrinə casusluq fəaliyyəti ilə məşğul olmuşdusa, digər hissəsi buna zorla vadar edilmişdi. Bu arada haşiyə çəıxaraq qeyd etməyi lazım bilirik ki, Cənubi Qafqazın işğalının gedişində xristian amilıindən kifayət qədər ustalıqla yararlanan Rusiya gürcülərlə yanaşı ermənilərdən də bir vasitə kimi istifadə etmişdir. Həmişə Rusiyanın timsalında özünə hami axtaran ermənilər isə demək olar işğal prosesinin gedişində çarizmin sadiq buyruq qulları kimi çıxış etmiş və onları bu işə xüsusi olaraq məcbur etməyə ehtiyac olmamışdır.[33] Rusların hücum etdiyi ilk Azərbaycan xanlığı Gəncə olmuşdur. Zira Gəncə şimaldan Azərbaycana gələn hərbi vəticarət yollarının qovuşduğu əsas kilid nöqtəsi idi. 1804-cü ildə Gəncəyə ruslar saldırdığı zaman ölkəni idarə edən Cavad xan, xanlığı qəhrəmancasına müdafiə etmişdir. Fəqət rus qüvvələrinin azlığına baxmayaraq aətəş güclərinin çoxluluğu və təsirli olması, Cavad xanın və əhalinin bütün qəhrəmanlıqları bir fayda verməyərək məğlub olmasına səbəb olmuşdur.[34] 1804-cü ildə Gəncə, Cavad xanın bütün cəhdlərinə baxmayaraq, ruslar tərəfindən işgal edildi. Ruslar, özlərini qəhramancasına müdafiə edən şəhər xalqını qətl etməklə cəzalandırmışlardır. Gəncənin adı da Rusiya çariçasının şərəfinə Yelizavetpol adlandırılmış və məscidlər də kilisəyə çevrilmişdir. Rusların bu qanlı işğalına Osmanlı Dövləti formal da olsa heç bir reaksiya vermədi.[35]

[32]Saray, *Yeni Türk Cumhuriyetleri Tarihi,* 5.
[33]Saray, *Azerbaycan Türkleri Tarihi,* 14.
[34]Saray, *Yeni Türk Cumhuriyetleri Tarihi*, 17.
[35]Saray, *Azerbaycan Türkleri Tarihi*, 17.

Tarixçi C.Yücel də adı çəkilən əsərində rusların hədəf olaraq seçdikləri ilk xanlığın Gəncə olduğunu qeyd edir.[36] Həmçinin müəllif son hökümdar Cavad xanın Gəncəni qəhrəmancasına müdafiə edərkən şəhid olduğu, şəhərin 2000 şəhid və 18000 əsir verərək təslim olduğu, həmçinin Gəncənin adının I Aleksandrın arvadının şərəfinə Yelizavetpol olaraq dəyişdirildiyi öz əksini tapmışdır.[37] C. Gökçe həmin ildə Rusiyanın Gəncə xanlığına işğalçı yürüşündən ətraflə şəkildə bəhs edir. Müəllif yazır: *"Gəncə xanı Cavad xan daxil olmaqla bir çoxları ruslara qarşı çıxaraq canlarını fəda etdilər. Gəncə xanlığı ruslar tərəfindən işğal edildi."*[38] Ancaq tarixçi C.Gökçe yanlış olaraq əvvəl Şirvanın, sonra isə Şəkinin ruslar tərəfindən 1804-05 illərdə tutulduğunu qeyd edir. Eləcədə o, Sisianovun 1805-ci ildə Bakıya girməsindən bəhs edir.

Tarixçi M.S.Bilge yazır ki, 1803-cü ilin noyabrında Gəncəni mühasirəyə alan Sisyanov 1804-cü il yanvarın 3-də, Gəncə xanı Cavad xan və oğlu Hüseyqulunun şəhid olmasından sonra Gəncə işğal edildi. Ruslar tərəfindən talan edilən Gəncənin adı dəyişdirilərək çariçanın şərəfinə Yelizavetpol adlandırıldı.[39] Əvvəlki illərdən Qacarlar sülaləsinin xanları tərəfindən idarə edilən, fəqət 1804-ci ildə ruslar tərəfindən işgal edilərək rus çarı I Aleksandrın arvadının şərəfinə Yeizavetpol adlandırılan və rus hərbi idarəsi qurulan Gəncədə xalq Abbas Mirzənin komandanlığında ruslara qarşı mühüm döyüşlərə qatıldılar.[40]

Türkiyə tarixşünaslığının nümayəndəsi A.Çeçen tədqiqat əsərində qeyd edir ki, Qafqazı istila etməyə çalışan Rusiya Gəncə və Qarabağ xanlıqlarında daha ciddi müqavimətlə üzləşmişdi, Gəncə qalası uzun müddət işğalçılara müqavimət göstərmişdi.[41] Göstərilir ki, çətin və qanlı döyüşlərdən sonra Azərbaycanın çar Rusiyasının nəzarəti altına keçməsi hüquqi baxımdan bir ölkənin müstəqilliyinə zorla son qoyularaq həyata keçiilən hərbi işğaldır.[42] Müəllifin *"ermənilər ilə gürcülərin ruslarla müharibədən çəkilməsi Qafqaz və Azərbaycan üçün cəsarət qırıcı olmuşdur"* tezisi fikrimizcə tənqidi yanaşma tələb edir. Çünki çar Rusiyasını Qafqaza məhz gürcülər dəvət etmişdilər və belə olan halda onların Rusiyaya qarşı hansısa müqavimət

[36]Yücel, *Dış Türkler*, 77-78.
[37]Yücel, *Dış Türkler*, 78.
[38]Gökçe, *Kafkasya ve Osmanlı İmparatorluğunun Kafkasya siyaseti*, 189-190.
[39]Bilg, *Osmanlı Devlet ve Kafkasya*, 167.
[40]Vidadi Umudlu, *Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğai olunması və müstəmləkəçilik əleyhinə mübarizə*, Bakı: Elm 2004, *28-29.*
[41]Anıl Çeçen, *Türk Devletleri,* İstanbul: Togan Yayınçılık, 2014, 286.
[42]Çeçen, *Türk Devletleri*, 287.

hərəkatında iştirakından söhbət gedə bilməzdi. Ermənilərə gəldikdə isə bəhs olunan dövrdə onların bir güc olaraq göstərilməsi düzgün deyildir.

Gəncəni qırğınlar törədərək işgal edən ruslar, ətrafdan, xüsusilə Osmanlı Dövləti ilə İrandan təsirli bir təzyiq olmadığını görüncə istila hərəkətinə davam etdi.[43]Tarixçi Nağı Keykurunun (Şeyxzamanlı) fikrincə ruslar ən çətin mübarizəni Gəncə xanlığı ilə edərək çoxlu itkilər vermişilər. Müəllif yazır: *"Şəhərə girən vəhşi rus əskərləri qarşılarına çıxan hər canlını qəddarcasına məhv edirdilər. Bu rus çarının onlara icazə verdiyi qələbə haqqıdır."*[44] Rusların Gəncə və Azərbaycan xalqına etdikləri vəhşət və hunharlıq unudulmayacaq qədər ağırdır.[45] Müəllif qeyd edir ki, *"xalqımız heç bir zaman ruslara isınmamış, onlara həmişə nifrət və kin dolu nəzərlərlə baxmışdırlar. Özünə inanan kənd gəncləri fürsət düşdükcə rus idarəçi jandarmlarını öldürür, sonra da silahlarını alıb dağa çıxardılar".*[46] Müəllif yazır: *"Burası qətidir ki, o zamanlar Azərbaycanın hər tərəfində amansız bir istiqlql mübarizəsi vardı. Mübarizə hər sahədə özünü göstərirdi."*[47]

Müəllif Cemalettin Taşkıranın fikrincə, Gəncə xanlığının süqutundan sonra digər bütün xanlıqlar bərabər olmayan güc tarazlığı və müxtəlif hiylə yolları ilə süqut etdilər. Qarabğlı İbrahim xan 1805-ci ilin mayında ruslar ilə anlaşmaq məcburiyyətində qaldı.[48] Gəncə xanlığının süqutu digər Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalını asanlaşdırdı.[49]

Qafqaz tarixinin tədqiqinə həsr olunmuş *"Dünden Bugüne Kafkasya"* adlı akademik araşdırmanın müəllifi Muharrem Yıldız, böyük əksəriyyəti türk-oğuz boylarına mənsub olan Azərbaycan türklərindən, Gəncə xanlığının rus hakimiyyətini qəbul etməsindən sonra digər xanlıqların da zorla Rusiyanın tərkibinə daxil edilməsindən bəhs edir. Müəllifin fikrinə davam edərək yazır: *"Xanlıqlar arasındakı ziddiyyətlərdən doğan bu böyük fəlakətin acı nəticələrini vaxt keçdikcə anlayan Azərbaycan türkləri yurdlarını, tarixin, taleyin ağrılı oyunlarından, rus zülmündən*

---

[43]Mirze Bala Mehmedzade, "Gence" maddesi, *Türkiye Diyanet Vakfi İslam Ansiklopedisi,* c.4, İstanbul: TDV Yay., 1991, 762-766.
[44]Naki Keykurun, *Azerbaycan İstiklalMücadelesinden Hatıralar(1905-1920),* Ankara: İlke Kitabevi Yayınları, 1998, 5.
[45]Keykurun, *Azerbaycan İstiklal Mücadelesinden Hatıralar(1905-1920),* 7.
[46]Keykurun, *Azerbaycan İstiklal Mücadelesinden Hatıralar(1905-1920),* 7.
[47]Keykurun, *Azerbaycan İstiklal Mücadelesinden Hatıralar(1905-1920),* 8.
[48]Cemalettin Taşkıran, *Keçmişten Günümüze Karabağ Meselesi*, Ankara:Genelkurmay Basımevi, 1995, 68.
[49]Umudoğlu, Kuzey Azerbaycanın Çar Rusiyası Tarafından İşğali ve Sömürgeçilige karşı Mücadele (1801-1828), 74.

*qorumaq və ondan xilas olmaq üçün qəhramancasına mübarizə aparsalar da baş vermiş fəlakətdən qurtula bilmədilər."*[50]

Rusiya ilə müharibədən məğlub yorğun ayrılan Osmanlı dövləti, nə Rusiya və nə də İranla üz-üzə gəlmək istəməyərək Qafgazdakı hadisələrə müdaxilə etmədi. Rusların Qafqazdakı hərəkətini sərhəd vilayətlərinin göndərdikləri hesabatlarla kifayətləndilər.[51]

[50]Muharrem Yıldız , *Dünden Bugüne Kafkasya*, İstanbul: Yitik Hazine Yayınları, 2006, 79.
[51]Bilge, *Osmanlı Çağında Kafkasya(1454-1829)*, 306.

**Nəticə**

Tədqiqatın predmetinintürk tarixçiləri tərəfindən araşdırılmasıvə onun Türkiyə ictimaiyyətinin diqqətinə çatdırılması tarixşünaslığımız üçün mühüm elmi əhəmiyyətə malikdir.Qeyd olunmalıdır ki, Türkiyə tarixçilərinin əksəriyyəti problemi hərtərəflitədqiq etmiş, qarşıya qoyulan məsələyə daha obyektiv yanaşmış,işğal faktı araşdırılarkən faktlara ıstinad edilmişdir. Ümumilikdə, Türkiyəli müəlliflər tədqiqat əsərlərində çarizmin iç üzünü açmış, onun işğalçı siyasətini tam mənası ilə ortaya qoya bilmişlər. Cənubi Qafqazda baş verən vəhşiliklərə Osmanlı Dövlətinin fəal müdaxilə edə bilməməsi və onu sükutla qarşılaması da tarixçilərin diqqətindən yayınmamışdır. Onu da qeyd edək ki, türk tarixçilər SSRİ-nin dağılmasından sonra araşdırılan mövzuya daha geniş şəkildə təmas edə bilmişlər.

## Ədəbiyyat

ARSLAN, A., *Kutsal Ermeni Papalığı Eçmiyadzin Kilisesi'nde Stratejik Savaşlar*, İstanbul: Truva Yayınları, 2005.

AYGÜN, N., "Kafkasyada Rus-Osmanlı Mücadelesi ve Kars dolaylarında Sınır İhaleleri, 1826", *Cumhuriyet Tarihi Araştırmaları Dergisi (CTAD)*, Yıl 3, sy.6 (2007): 98-116.

AYDIN, M., *Üç Büyük Gücün Çatışma Alanı Kafkaslar*, İstanbul: Gökkubbe, 2005.

BALA, M.M. "Gence" maddesi, *Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi*, 4: 762-766., İstanbul: TDV Yay., 1991.

*Başbakanlık Osmanlı Arşivi (BOA), Hatti-Humayun (HAT) fonu.*

BILGE, M.S. *Osmanlı Çağında Kafkasya(1454-1829)*, İstanbul: Kitabevi Yayınları, 2015.

---------------. *Osmanlı Devlet ve Kafkasya*, İstanbul: Eren Yayıncılık, 2006.

BERKOK, İ., *Tarihte Kafkasya*, İstanbul: İstanbul Matbası, 1958.

BUDAK, M., "Osmanlı-Rus ilişkilerinde Kafkasya", *Avrasya Etütleri, IV* (1995): 113-126.

ÇEÇEN, A., *Türk Devletleri*, İstanbul: Togan Yayınçılık, 2014.

GÖKÇE, C., *Kafkasya ve Osmanlı İmparatorluöunun Kafkasya siyaseti*, İstanbul: Şamil Egitim ve Kültür Vakfı, 1979.

HASAN, O., Kafkaslarda Rus Yayılması Karşısında Osmanlı-Kaçar Faktörünün Harekete Geçirilme Teşebbüsü (Ağustos-Eylül 1811). *Vakanüvis*, 2 (2017): 379-392.

İPEK, N., "Kafkaslar'daki Nüfûs Hareketleri" *Türkiyat Mecmuası*, 20 (1991): 273-313.

KEYKURUN, N., *Azerbaycan İstiklal Mücadelesinden Hatıralar (1905-1920)*, Ankara: İlke Kitabevi Yayınları, 1998.

KURAT, A.N., *Türkiye ve Rusya*, Ankara: Kültür Bakanlığı Yayınları, 1990.

*Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasebetlere Dair Arşiv Belgeleri (Karabağ-Şuşa, Nahçıvan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy) 1578-1914*, Ankara: Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı Yayınları, 1993.

*Osmanlı Belgelerinde Azerbaycan*, İstanbul: Türk Dünyası Belediyeler Birliği (TDBB) Yayınları, 2015.

*Osmanli Belgelerinde Karabağ,* İstanbul: Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı Yayınları, 2009.

RESULZADE, M. E., *Azerbaycan Problemi*, Ankara: Azerbaycan Kültür Derneği, 1996.

SARAY, M., *Azerbaycan Türkleri Tarihi*, İstanbul: İstanbul Matbaası, 1993.

--------------, *Yeni Türk Cumhuriyetleri Tarihi*, Ankara: Türk Tarih Kurumu, 2014.

-------------, *Rus İşğali Devrinde Osmanlı Devleti İle Türkistan Hanlıkları Arasınadaki Siyasi Münasebetler (1775-1875),* Ankara: Türk Tarih Kurumu Yayınları, 1994.

--------------, *Rus-Türk Münasebetlerinin Bir Analizi*. İstanbul: Milli Eğitim Bakanlığı Yayınları, 1998.

---------------, Ermeni Terörü (1887-2002*), Ermeni Araştırmaları I. Türkiye Kongresi Bildirileri,* ASAM, c. II (2003): 383-398.

SAYDAM, A., *Kırım ve Kafkas Göçleri (1856-1876),* Ankara: Türk Tarih Kurumu, 2010.

TAŞKIRAN, C., *Keçmişten Günümüze Karabağ Meselesi,* Ankara: Genelkurmay Basımevi, 1995.

UMUDOĞLU V., "Kuzey Azerbaycanın Çar Rusiyası Tarafından İşğali ve Sömürgeçilige karşı Mücadele(1801-1828)", *Türk Dünyası Araştırmaları, Sayı 124* (2000): 55-76.

UMUDLU V.U., *Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğai olunması və müstəmləkəçilik əleyhinə mübarizə,* Bakı: Elm, 2004.

YÜCEL C., *Dış Türkler*, İstanbul: Hun Yayınları, 1976.

YILDIZ M., *Dünden Bugüne Kafkasya*, İstanbul: Yitik Hazine Yayınları, 2006.